Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# Yeni YOL

30 İYUN
2022-Cİ İL
№ 012 (159)

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## İRAKLİ QARİBAŞVİLİ MADRİDDƏ Aİ ŞURASININ PREZİDENTİ İLƏ GÖRÜŞÜB



“Gürcüstan Avropa İttifaqına üzvlüyə namizəd statusu almaq üçün Avropa Komissiyasının tövsiyələri üzərində fəal iş aparacaq”. Bunu Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə Madriddə keçirdiyi görüşdə deyib.

O, Gürcüstana Avropa pesrpsektivinin təqdim edilməsinin tarixi qərar olduğunu vurğulayıb.

Baş nazirin sözlərinə görə, Avrointeqrasiya yalnız Gürcüstan hökumətinin deyil, gürcü xalqının da seçimidir. İ.Qaribaşvili Gürcüstanın Avropaya inteqrasiya yolunda Ş.Mişelin şəxsi səylərinə görə minnətdarlıq bildirib.

Görüşdə Ukraynada davam edən müharibəyə də toxunulub. İ.Qaribaşvili Gürcüstan hökuməti və xalqının Ukraynaya həmrəylik və dəstəyini bir daha təsdiqləyib.

## GÜRCÜSTANA TÖVSİYƏ, UKRAYNA VƏ MOLDOVAYA İSƏ Aİ-YƏ ÜZVLÜYƏ NAMİZƏD STATUSU VERİLİB



İyunun 23-də Avropa İttifaqı (Aİ) Ukrayna və Moldovaya üzvlüyə namizəd statusu təqdim edib. Bu barədə Aİ Şurasının Prezidenti Şarl Mişel tviter hesabında bildirib.

O, Ukrayna və Moldova prezidentləri - Volodimir Zelenski və Maria Sandunu qəbul olunan qərar münasibətilə təbrik edib.

Ş.Mişel qeyd edib ki, Gürcüstanın Avropa perspektivi tanınıb və ölkəyə Aİ-yə üzvlüyə namizəd statusu prioritetlərin yerinə yetirilməsindən sonra veriləcək. Avropa Komissiyası Tbilisiyə statusun alınması üçün 12 şərti yerinə yetirməyi tövsiyə edib.

“Gürcü xalqını təbrik edirəm. Aİ-Gürcüstan münasibətlərində tarixi məqam: Gürcüstanın gələcəyi Aİ daxilindədir”, - Ş.Mişel qeyd edib.

## BAŞ NAZİR: “UKRAYNA VƏ MOLDOVA Aİ-YƏ ÜZVLÜYƏ NAMİZƏD STATUSUNU HƏVƏSLƏNDİRİCİ HƏDİYYƏ KİMİ ƏLDƏ EDİB”

“Ukrayna və Moldova Avropa İttifaqına üzvlüyə namizəd statusunu həvəsləndirici hədiyyə kimi əldə edib”. Bunu Gürcüstanın Baş naziri İrakli Qaribaşvili brifinqdə deyib.

O, hər iki ölkəni namizəd statusu alması münasibətilə bir daha təbrik edib.

“Ukrayna və Moldovaya uğurlar, hər iki xalqa tərəqqi və sülh arzulayıram. Ukrayna ən ağır müharibə şəraitindədir, Moldova da çətin vəziyyətdədir. Biz onlara paxıllıq etmirik. Əksinə, onları bir daha təbrik etmək və uğurlar arzulamaq istəyirəm”, - deyə Baş nazir bildirib.

O, Gürcüstan hökumətinin namizəd statusunu tez bir zamanda əldə etmək üçün Aİ-nin müəyyən etdiyi bütün şərtləri vaxtında yerinə yetirmək üçün səfərbər olduğunu deyib.

Baş nazirin sözlərinə görə, Gürcüstanın Avropa perspektivi layiqincə qiymətləndirilib: “Hazırda Gürcüstanın bütün şərtləri ən qısa müddətdə yerinə yetirməsi üçün əlavə motivasiyası var”.

## GÜRCÜ ARZUSU PARTİYASINDAN İSTEFALAR OLUB



Hakim Gürcü Arzusu Partiyasında istefalar baş verib. **Sozar Subari, Mixeil Kavelaşvili və Dmitri Xundadze** partiya sıralarını tərk ediblər. Onlar parlamentdəki vəzifələrindən də istefa veriblər.

İstefalara səbəb parlament çoxluğunun iyunun 28-i keçirilən iclasında razılaşdırılmayan məsələ olub.

S.Subari, M.Kavelaşvili və D.Xundadze deputat mandatlarını saxlayıblar.

Qeyd edək ki, S.Subari parlamentin Regional siyasət, M.Kavelaşvili İdman və gənclər məsələləri, D.Xundadze isə Səhiyyə və sosial məsələlər üzrə komitəsinin sədri olub.

Səh. 2 YENƏ ZOOPARK? - Azər Musaoğlu yazır
Səh. 3 AZAN SƏSİ - Hacı Bəkiroğlu yazır
Səh. 4 2022-Cİ İLİN MİLLİ MÜƏLLİM MÜKAFATININ ONLUĞU MƏLUMDUR
Səh. 4 İMTAHAN VAXTI HANSI MÜƏLLİMLƏR ÜÇÜN ARTIRILACAQ?
Səh. 5 SƏHV DÜŞMƏSİN YERİMİZ - Esmira Ələkbərli yazır
Səh. 5 TAXILI BİTƏN PAXILLAR - Çiyalə Osmanova yazır
Səh. 6 TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ - Elizbar Cavelidze
Səh. 7 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - Afiq Muxtaroğlu yazır



## YENƏ ZOOPARK?

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Orta məktəblərdə dərs ili sona çatanda adətən müəllimlər şagirdlər üçün ekskursiyalar təşkil edirlər. Doqquz ayın yorğunluğunu, stresini, həyəcanını, gərginliyini, səhər yuxusundan məhrumiyyətini, əlbəttə ki, bir-iki günlük ekskursiya ilə nə müəllimlər, nə də şagirdlər çıxara bilər.

Fikir vermisinizsə, ana da övladını bətnində doqquz ay gəzdirdikdən sonra dünyaya gətirir, müəllim də şagirdlərinə bir sinifdə doqquz il dərs dedikdən sonra onları yeni həyata ötürür (gətirir). Bir az sentimental bənzətmə olsa da, müəllimə ikinci ana deyilməsi bəlkə də bu doqquz rəqəmi ilə bağlıdır (Ümumiyyətlə, bizdə müəllim deyəndə ilk ağla gələn qadın müəllim olur, həm də ibtidai sinif müəllimlərinin əksəriyyəti qadın müəllimlər olduqlarına görə belədir yəqin, mən kişi ibtidai sinif müəllimi tanımıram, görməmişəm, buna görə də xahiş edirəm "müəllim ikinci anadır" deyiminə kişi müəllimlər tolerant yanaşsınlar). Deyəsən mətləbdən uzaqlaşıb numerologiyaya ekskursiya etdik, halbuki, ekskursiyamız təbiət qoynuna və ya zooparka olmalı idi.

Necə ki bunu müəllimlərin bir çoxu edir. Ekskursiya deyəndə ya hansısa ağaclıq, çəmənlik yada düşür, ya da zoopark. Yazını diqqətlə oxuyun ki, söhbətin bütün müəllimlərə aid olmadığını öz gözlərinizlə görəsiniz (oxuyasınız).

Sosial şəbəkələrdə şagirdlərin ekskursiyaları ilə bağlı videolar, şəkillər qarşıma çıxdı. Sevindirici bu idi ki, bəzi müəllimlər şagirdlərini muzeylərə, qalereyalara aparmışdı, təəssüf doğuran isə əksər müəllimlərin ekskursiya məkanı olaraq yenə də ağaclıq, göl ətrafı, çəmənlik və zooparkı seçmələri idi.

Axı, möhtərəm intelligentlər, hər il eyni ağacı, təpəni, heyvanı görməkdən bezmədinizmi? Şagird məktəbi bitirəndən sonra yadında qalan yeganə xatirəsi zooparkda gördüyü heyvanlar olur. On iki il buna görəmi oxuyurdu? Axı o akasiya ağacını, çinarı, şamı, palıdı, o təpəlikləri, keçini, qazı, atı, eşşəyi şagird hər gün görür, bunun üçün istidə əlli kilometr yol qət etməyə ehtiyac da yoxdur. Göl demiş, axı Təhsil Nazirliyi məktəblərə ekskursiyalarla bağlı göstərişində şagirdləri çay, su anbarı, göl ərazisinə aparmağı qadağan edib.

Belə çıxır ki, ya Novruzəli divanxananı tanıyan kimi bizim də paytaxtda tanıdığımız yeganə yer zooparkdı, ya da başımızı muzeylə, qalereyayla ağrıtmaq istəmirik, zooparkla yola veririk. Həm yolu-izi yaxşı tanıyırıq, həm də artıq zooparkdakı bütün heyvanlar bizi tanıyır.

Möhtərəm intelligentlər, axı Tbilisidə bir-birindən maraqlı gediləsi, görüləsi məkanlar çoxdur. Məsələn, şəhərin girişində Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi qapılarını hamının üzünə açır, onun qarşısında Bülbülün büstü var, ondan bir az aralı Heydər Əliyev adına park, Nəriman Nərimanovun ev muzeyi, Cəlil Məmmədquluzadənin ev muzeyi, Tiflis Azərbaycan Dram Teatrı, ondan yuxarıda Tiflis Cümə məscidi, Nəbatat bağında M.F.Axundzadənin, Mirzə Şəfi Vazehin, Fətəli Xan Xoyskinin, Həsən bəy Ağayevin məzarlarının yerləşdiyi görkəmli azərbaycanlıların panteonu var. Parlamentin qarşısında tanınmış rəssamların əsərlərindən ibarət Gürcüstan İncəsənət Qalereyası, onun yanında Pirosmani, Kakabadze, Qudiaşvili kimi görkəmli rəssamların əsərlərinin sərgiləndiyi Milli Qalereya, bir az aralıda Lado Qudiaşvilinin ev muzeyi, Gürcüstan Parlamentinin Milli Kitabxanası, Gürcüstan Milli Muzeyi fəaliyyət göstərir. Ümumiyyətlə, yaxşı olar ki, ekskursiyalar təkcə dərs ilinin sonunda deyil, ildə bir neçə dəfə təşkil olunsun, muzeylərlə, qalereyalarla, tarixi və mədəni yerlərlə yanaşı, həmçinin paytaxtda yerləşən təhsil ocaqlarına, universitetlərə də ekskursiyalar edilsin ki, şagirdlər universitet seçimi edəndə məlumatsızlıqdan çətinlik çəkməsinlər və sair, və ilaxır.

Bəs biz nə edirik? Uşaqları "marşrutkalara" doldurub zooparka aparırıq. Axı şagird bu ekskursiyadan nə nəticə əldə etsin? Uzağı kənd eşşəyi ilə zooparkdakı şəhər eşşəyinin yaşayış şəraitini fərqləndirə biləcək, iki eşşəyin arpasını bölə biləcək, ya bilməyəcək yəni.

Möhtərəm intelligentlər, mən burada bildiyim, gördüyüm yerlərin adını qeyd etdim. Getməli, gəzməli, görməli yerlər çoxdur. Mənə inanmırsınızsa gürcüdilli məktəblərdə işləyən müəllim həmkarlarınızdan da soruşa bilərsiniz. Öyrənin, görün onlar öz şagirdlərini ekskursiyaya hara aparırlar.

## GÜRCÜSTAN BUĞDA İXRACINA QADAĞA QOYUR



İyulun 4-dən Gürcüstan yerli istehsal olan buğda və arpanın ixracına qadağa tətbiq edəcək. Bu barədə qərarı Gürcüstan hökuməti qəbul edib. Qərarın məqsədi ölkədə buğda defisitinə yol verməməkdir.

Gürcüstanın kənd təsərrüfatı naziri Otar Şamuqianın sözlərinə görə, ölkədən buğda və arpa ixracına qadağa 2023-cü il iyulun 4-dək qüvvədə qalacaq.

Nazir deyib ki, cari ildə Gürcüstandan 2,5 min ton arpa ixrac olunub. Məhsul əsasən İran və İraqa daşınıb.

Bu il Gürcüstanda təxminən 60 min ton arpa tədarük olunacağı proqnozlaşdırılır.

Gürcüstanda hər il 130 min tona yaxın buğda istehsal olunur. Bu isə ölkənin buğdaya olan tələbatının beşdə birini təşkil edir.

Ölkənin buğdaya olan tələbatını ödəmək üçün tələb olunan bu məhsulun qalan 90 faizi isə Rusiyadan alınır.

Otar Şamuqia bildirib ki, hökumət yaxın illərdə ölkədə buğda əkinini 15 faizdən 50 faizədək artırmağı planlaşdırır.

## KONSTİTUSİYA MƏHKƏMƏSİ HÖKUMƏTİN PREZİDENTƏ QARŞI İDDİASINI QƏBUL EDİB

Gürcüstanın Konstitusiya Məhkəməsi "Gürcüstan hökuməti Gürcüstan Prezidentinə qarşı" iddiasına baxacaq. Konstitusiya iddiasına məhkəmənin Plenumunda baxılması məqsədəuyğun hesab edilib.

Məhkəmənin qərarında bildirilib ki, Gürcüstan hökuməti iyunun 10-da konstitusiya şikayəti təqdim edib. İddiada səfirlərin və diplomatik missiyaların rəhbərlərinin təyinatı və vəzifədən azad edilməsi ilə bağlı hökumət və Gürcüstan Prezidenti arasında səlahiyyətlərin bölünməsi tələb olunur.

Gürcüstan hökuməti bildirib ki, Konstitusiya Gürcüstan Prezidentinə ölkənin daxili və ya xarici siyasətinin həyata keçirilməsində iştirak etmək səlahiyyətini vermir. Bu müstəsna səlahiyyət Gürcüstan hökumətinə məxsusdur.

Qeyd edək ki, Konstitusiya Məhkəməsinə müraciətin səbəbi Prezidentin hökumətin təqdimatı ilə bir sıra ölkələrə səfir təyinatından imtina etməsi olub. Gürcüstanın Prezident Administrasiyasından iddiaya cavab olaraq isə bildirilib ki, 2021-ci ilin yanvarın 1-dən 2022-ci ilin martın 21-dək olan dövrdə hökumət səfir və diplomatik missiya rəhbərləri vəzifəsinə 12 namizəd təqdim edib və dövlət başçısı onların hamısının təyinatı haqqında fərman imzalayıb.

## MUĞANLI KƏNDİNİN LÖVHƏLƏRİ VANDALİZMƏ MƏRUZ QALIB




Qardabani rayonunun Muğanlı kəndinin adı yazılan lövhələrə qarşı vandalizm törədilib. Bir lövhə odlu silahdan atəşə tutulub, digərinin üzərindəki kəndin adı isə boya ilə rənglənərək görünməz hala salınıb.

Kənd sakinlərinin "Report"un Gürcüstan bürosuna bildirdiyinə görə, lövhələrə bu yaxınlarda ziyan vurulub. Lövhələrdən biri iki ay əvvəl güllə ilə deşik-deşik edilib, yararsız hala salınıb. İkinci lövhəyə qarşı vandalizm faktı isə bu günlərdə baş verib.

Məsələ ilə bağlı aidiyyəti qurumlar və polis məlumatlandırılıb.

Hər iki lövhənin hazırkı vəziyyətini əks etdirən fotoşəkillər sosial şəbəkələrdə yayılıb. Yerli sakinlər vandalizmə əl atanların müəyyən olunaraq cəzalandırılmasını tələb edirlər.

## GÜRCÜSTANDA YENİ DÖVLƏT QURUMU YARADILIB

Gürcüstanda Kurortların İnkişafı üzrə Agentlik yaradılıb. Yeni yaradılmış qurum ölkənin İqtisadiyyat və Dayanıqlı İnkişaf Nazirliyinin nəzdində fəaliyyət göstərəcək.

Agentliyin əsas məqsədləri balneoloji, dağ və digər kurortların inkişafı, yeni, potensiallı kurortların tədqiqi və müvafiq baş planların hazırlanması, müvafiq infrastrukturun qurulması üçün müxtəlif qurumlarla əməkdaşlıq, sərmayələr və qrantların cəlb edilməsindən ibarət olacaq.

Yeni dövlət qurumunun rəhbəri Sandro Onoprişvilidir. O, 2018-ci ildən iqtisadiyyat və dayanıqlı inkişaf nazirinin mədənçıxarma sənayesi məsələləri üzrə müşaviri olub.

Qeyd edək ki, Gürcüstanda 300-ə yaxın kurort və kurort yeri var.

## AZƏRBAYCANIN GÜRCÜSTANDAKI SƏFİRLİYİ MARNEULİDƏ BAŞ VERMİŞ BƏDBƏXT HADİSƏ İLƏ BAĞLI BAŞSAĞLIĞI VERİB

Azərbaycanın Gürcüstandakı səfirliyi Marneulidə yaşayış binasında iki nəfərin ölümü ilə nəticələnən bədbəxt hadisə ilə bağlı başsağlığı verib. Diplomatik nümayəndəlikdən hadisə barədə xəbərin kədər hissi doğurduğu bildirilib: **"Marneuli şəhərinin mərkəzində beşmərtəbəli binada baş verən uçqun nəticəsində insanların həlak olması və xəsarət alması xəbərindən kədərləndiyimizi bildirir, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayırıq".**

Qeyd edək ki, iyunun 26-sı baş vermiş bədbəxt hadisə nəticəsində bir nəfər yerindəcə ölüb. Xəsarət alan hamilə qadın xəstəxanaya çatdırılsa da, dünyasını dəyişib. Onun körpəsini xilas etmək mümkün olub. İkisi uşaq olmaqla xəsarət alan üç nəfərin klinikalarda müalicəsi davam etdirilir.

Faktla bağlı tikinti işlərinin aparılması zamanı təhlükəsizlik qaydalarının pozulması maddəsi üzrə istintaq aparılır.

## BAŞ NAZİR TÜRKİYƏ SƏFİRİ İLƏ GÖRÜŞÜB



Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqanla görüşüb.

Tərəflər reiondakı vəziyyət, sülh və sabitliyin qorunub saxlanılmasının əhəmiyyəti barədə fikir mübadiləsi apardılar. İ.Qaribaşvilinin "Cənubi Qafqazda Dinc Qonşuluq" təşəbbüsü də müzakirə edilib. Vurğulanıb ki, Gürcüstan hər zaman bölgədə dinc əməkdaşlıq və birgəyaşayışın tərəfdarı olub və regional dialoqa töhfə verməyə hazırdır.

Görüşdə Gürcüstan və Türkiyə arasında mehriban qonşuluq münasibətləri və strateji tərəfdaşlığın gələcək inkişafı məsələlərinin də müzakirəsi aparılıb. Qeyd edilib ki, mövcud regional layihələr iki ölkə arasında effektiv strateji və etibarlı tərəfdaşlığın bariz nümunəsidir.

İ.Qaribaşvili səlahiyyət müddəti başa çatmaqda olan diplomata Türkiyə ilə Gürcüstan arasında strateji tərəfdaşlığın inkişafı üçün səylərə görə təşəkkür edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

## İLİA DARÇİAŞVİLİ TÜRKİYƏ SƏFİRİ İLƏ VİDA GÖRÜŞÜ KEÇİRİB



Gürcüstanın xarici işlər naziri İlia Darçiaşvili Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqanla vida görüşü keçirib.

Tərəflər iki ölkə arasında strateji tərəfdaşlığı qeyd edərək həm ikitərəfli, həm də çoxtərəfli formatlarda uğurla inkişaf edən mövcud münasibətlərin artan dinamikasından məmnunluq ifadə ediblər.

Görüşdə ikitərəfli gündəlikdə duran aktual məsələlər və münasibətlərin gələcək inkişaf perspektivləri müzakirə olunub. Sahələrarası əməkdaşlığın bundan sonra da dərinləşdirilməsi və yüksək səviyyədə qarşılıqlı səfərlərin mübadiləsinin əhəmiyyəti də vurğulanıb.

Regiondakı vəziyyəti də nəzərdən keçirən tərəflər bölgənin gələcək inkişafı üçün sülh və sabitliyin önəmini qeyd ediblər.

XİN başçısı səfirə Gürcüstan-Türkiyə münasibətlərinin inkişafına verdiyi əhəmiyyətli töhfəyə görə təşəkkür edərək ona gələcək fəaliyyətində uğurlar diləyib.

Qeyd edək ki, F.C.Yazqan 2017-ci ildən Türkiyənin Gürcüstandakı səfiri olub. Onun yerinə bu ilin aprelində Ali Kaan Orbay təyinat alıb.

## TBİLİSİDƏ AZƏRBAYCANIN SİLAHLI QÜVVƏLƏR GÜNÜ QEYD EDİLİB



İyunun 26-sı Paytaxt Tbilisidə Azərbaycanın Silahlı Qüvvələr Günü qeyd edilib. Azərbaycan ordusunun yaradılmasının 104-cü ildönümü münasibətilə Tbilisidəki parkda Heydər Əliyevin abidəsi ziyarət olunub.

Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, hərbi attaşe polkovnik-leytenant Fuad İbrahimov, hərbi attaşe aparatı və səfirlik əməkdaşları Heydər Əliyevin büstü önünə gül dəstələri düzərək xatirəsini ehtiramla anıblar.

Ziyarətdə Türkiyənin Gürcüstandakı hərbi attaşesi polkovnik Burak Altınər və hərbi attaşe aparatının zabitləri də iştirak ediblər. Onlar Azərbaycanı və azərbaycanlı həmkarlarını Silahlı Qüvvələr Günü münasibətilə təbrik ediblər.

## AZAN SƏSİ



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

Dünyada bir çox din mövcuddur. Bir çox inanc növü də zaman-zaman yaşanıb və tarixdən silinib. Bu dinlərin də hər birinin özünəməxsus ibadət üsulu və bu ibadətə dəvət metodları olub. Bu dəvət metodunun islam dininə aid olanına azan deyilir. Lüğətdəki mənası bildirmək, duyurmaq, çağırmaq, elan etmək olan azan müxtəlif sözlərlə müsəlmanları namaza dəvət etməkdir. Azandakı sözlərin mənaca tərcüməsinə baxsaq Allahın birliyini, Hz. Məhəmmədin Allahın peyğəmbəri olduğunu söyləməkdə və namaza, qurtuluşa dəvət etdiyini görərik.

Azan islam dininin simvollarından biridir. Azan səsi onu dinləyən insanı dərin düşüncələrə aparan, insanın ruhunu dincəldən gözəl bir sədadır.

Bu yazını yazmağa məni bu yaxınlarda sosial mediada paylaşılmış olan bir yazını oxumağım vadar etdi. Yazıda bir nəfər "ağsaqqal" azan səsindən utandığını, azan səsini eşitdikdə bir çox mənfi hissləri xatırladığını yazırdı. Babəkin qətlini, müsəlmanların öldürülməsini, qadınların örtülü geyinməsini yazaraq dini suçlayırdı. Bəs heç tarix oxumayıbmı ki, bilsin satqınlığın, şorgözlüyün dini yoxdur, bu cür hadisələr elə xristianlıqda da, yəhudilikdə də, eləcə də digər inanclarda da olmuşdur. Müsəlmanların öldürülməsi müsəlmanın günahı deyildir. Hə, əgər müsəlmanın müsəlmanı öldürməsini deyirsə bu, elə xristianlıqda da tarix boyu olmuşdur (mən öz din qardaşlarını öldürənləri dəstəkləmirəm). Qadınların örtünməsinə gəlincə isə, qadının örtünməsi kişinin qeyrətidir. Əgər sən öz dəyərlini qorumaq istəyirsənsə onu yadlardan saxlamalısan.

Mən də bu yazıda azan səsini eşitdikdə bir çox qürurverici hisslər yaşadığımı və xoş hadisələri xırladığımı yazacam.

Mən azan səsini eşitdikdə insanlar arasında bərabərliyi görürəm. Çünki islamın ilk gəldiyi dönəmdə ərəblər zənciləri sadəcə qul olaraq görürdülər, ancaq islam dini dinin ən əhəmiyyətli çağırışı olan azanı oxumasını bir zənci olan Bilal Həbəşiyə tapşırdı.

Mən azan səsini eşitdikdə insanları varlı-kasıb ayırmadan hər kəsi bərabər edən "Şübhəsiz, Allah yanında sizin ən dəyərliniz ən təqvalı olanınızdır" (Hucurat, 13) ayəsini xatırlayıram.

Mən azan səsini eşitdikdə müsəlmanın gücünü görürəm. Çünki Fatehin İstanbulu fəthini xatırlayıram.

Mən azan səsini eşitdikdə islamın qadına verdiyi dəyəri anlayıram. İslam dini cənnəti qadının, ananın ayağının altında sayır. Ananı qiymətli sayır. Qadına örtün deyərək onun iffətini kənar gözlərdən qoruyur.

Mən azan səsini eşitdikdə elmi xatırlayıram. İlk ayəsi "OXU" olan Quranı xatırlayıram. Fəxrəddin Razini, İbn Sinanı, Şeyx Nizamini, Füzulini və neçə-neçə elm xadimlərimizi xatırlayıram. Həndəsə elminin, cəbr elminin ixtirasını xatırlayıram.

Mən azan səsini eşitdikdə vətən uğrunda çarpışan, canını ortaya qoyan şəhidləri xatırlayıram.

Mən azan səsini eşitdikdə imanlı, inanclı, içkisiz, qumarsız, təmiz gənclik düşünürəm.

Mən azan səsini eşitdikdə həzrət Əbu Bəkrin səxavəti, həzrət Ömərin ədaləti, həzrət Osmanın iffəti, həzrət Əlinin cəsarəti və elmi yadıma gəlir.

Yazılacaq daha çox şeylər var, ancaq nadan yenə də öz qaranlığında qalıb, öz düdüyünü çalacaq. Kitab oxumaqla, alim adı almaqla insan yüksəlməz. İnsan gərək bir az da mənəviyyatını, vicdanını və ədəbini də yüksəltsin.

Əlbəttə, hər kəs fikrində azaddır. Ancaq kiminsə başqalarının inancına, müqəddəslərinə dil uzatmağa, təhqir etməyə haqqı yoxdur.

Hər kəsə oturub bir az da Yaradanı düşünmək, onu təfəkkür etmək diləyi ilə...

## İMTAHAN VAXTI HANSI MÜƏLLİMLƏR ÜÇÜN ARTIRILACAQ?



Müəllimlər üçün imtahana **34 500**-dən çox şəxs qeydiyyatdan keçib. Onlar üç növ imtahanda iştirak edəcəklər: fənn imtahanı, xüsusi baş müəllim imtahanı, aparıcı və mentor statusları qazanmaq üçün peşə bacarıqları imtahanı.

Müəllimlərin bir çoxu imtahan vaxtlarının azlığı ilə bağlı etirazlarını bildiriblər. Məsələn, statuslarını yüksəltmək istəyən müəllimlər hesab edirlər ki, aparıcı və mentor statusu üçün qoyulmuş baryeri aşmağa 4 saat vaxt kifayət deyil.

Fənn imtahanları üçün də müddət 4 saatdır. Yalnız biologiya fənni istisnadır. Həmin fənnə 3 saat 30 dəqiqə vaxt qoyulub. İdman üçün 2 saat və 30 dəqiqə, xarici dilin dinləmə, yazı, oxu hissəsinə 4 saat, nitq hissəsinə isə 15 dəqiqə vaxt qoyulub. Qeyri-gürcüdilli məktəb nümayəndələrinə gürcü dili imtahanının dinləmə, oxu, yazı, peşə qabiliyyəti hissəsinə 4 saat 30 dəqiqə vaxt qoyulub. Nitq hissəsinə isə əlavə 15 dəqiqə vaxt artırılıb.

Suallar yaranır: ayrılmış vaxt ərzində test üzərində işləməyi başa vurmasalar müəllimlərə imtahan vaxtı artırılacaqmı? Bəs imtahan vaxtı başa çatdıqdan sonra cavabların "qaralamadan" cavab vərəqəsinə köçürülməsi üçün əlavə vaxt tələb edənlərə vaxt artırılacaqmı?

Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzinin açıqlamasına görə, tibbi arayışla təsdiqlənmiş funksional pozuntuları olanlardan başqa heç kimə vaxt əlavə olunmayacaq! İmtahan başa çatmazdan 10 dəqiqə əvvəl müşahidəçi və ya kurator aplikantlara vaxtı xatırladacaq ki, hamı test üzərində işini vaxtında tamamlasın.

Qeyd edək ki, 19 500-ə yaxın aplikant fənn imtahanı, 2 500-dən çox aplikant xüsusi baş müəllim imtahanı, 12 500-dən çox pedaqoq isə aparıcı və mentor müəllim statusu qazanmaq üçün qeydiyyatdan keçib.

## MÜƏLLİMLƏRİN ANALİTİK YAZILARI HANSI MEYARLARLA QİYMƏTLƏNDİRİLİR?



Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzi aparıcı və mentor olmaq istəyən müəllimlər üçün artıq test nümunəsini yayımlayıb.

Statusu yüksəltmək istəyənlər üçün 2022-ci ildə ilk dəfə imtahan keçirilir. Ona görə də yeni testlər müəllimlər üçün yenilik olacaq.

İmtahanda iştirak edənlər üçün tapşırıqlardan biri funksiya/analitik yazı olacaq. Nümunəyə əsasən, yazı 8 balla qiymətləndiriləcək.

Funksiya yazısı zamanı müəllimdən nə tələb olunur? Yazı hansı meyarlarla qiymətləndiriləcək və maksimum bal neçədir?

Funksiya hissəsində iş məktubu nəzərdə tutulur. İmtahan iştirakçılarının işi 5 meyarla qiymətləndiriləcək:

**I meyar:** tələbi formalaşdırmaq (maksimum 2 bal);

**II meyar:** müzakirənin əsaslandırılması (maksimum 2 bal);

**III meyar:** yazının formalaşdırılması (maksimum 1 bal);

**IV meyar:** stil, leksika (maksimum 2 bal);

**V meyar:** sintaksis, morfologiya, durğu işarələri (maksimum 1 bal).

Əgər birinci meyara əsasən yazını aydın şəkildə formalaşdırsanız 2 bal qazanacaqsınız. İnandırıcı arqumentləşdirilmiş müzakirə halında 2 bal əlavə olunacaq. Struktur baxımından dolğun yazı 1 balla qiymətləndiriləcək, əgər yazı leksika baxımından zəngin, stil baxımından isə düzgün olarsa əlavə 2 bal qazanacaqsınız. 5-ci meyara əsasən isə 10-dan artıq sintaksis, morfologiya və durğu işarəsi səhvinə yol verməməlisiniz. Əgər 10-dan artıq belə səhv qeydə alınarsa 0 bal, 10-dan az səhv olan halda isə 1 bal qazanacaqsınız.

2 balla qiymətləndirmə meyarlarında əgər fikrinizi qismən çatdırsanız 1 bala layiq görüləcəksiniz, əgər ümumiyyətlə, tələbə cavab verməsəniz 0 bal qazanacaqsınız.

## 2022-Cİ İLİN MİLLİ MÜƏLLİM MÜKAFATININ ONLUĞU MƏLUMDUR



Təhsil Koalisiyasının təşəbbüsü ilə keçirilən Milli Müəllim Mükafatı müsabiqəsinin onluğu müəyyən edilib. Onlardan biri 5 oktyabr Beynəlxalq Müəllimlər Günü Milli Müəllim Mükafatının sahibi olacaq. Bundan əlavə, qalibə pul mükafatı olaraq kampaniyanın baş sponsoru olan Qudavadze-Patarkatsişvili Fondu tərəfindən 15 000 lari veriləcək. Ən yaxşı onluğun qalan üzvlərini isə "Liberty Bank" mükafatlandıracaq.

***Cari ilin ən yaxşı müəllim onluğu isə aşağıdakı kimidir:***

**Kaxa Qaldava** – Samtredia 1 saylı ictimai məktəbin tarix müəllimi;

**Mixeil Labartqava** – "Şavnabada" Gimnaziyasının kimya müəllimi;

**Lali Marqiani** – Marneuli bələdiyyəsinin Xocorni kənd ictimai məktəbinin gürcü dili ikindi dil kimi fənni üzrə müəllimi;

**Nana Mqaloblişvili** – Çoxataurinin Müqəddəs Məryəm adına dini məktəbinin gürcü dili və ədəbiyyatı müəllimi;

**Xatuna Nozadze** – Tbilisi Baksvud Beynəlxalq Məktəbin və Davit Saracişvili adına 16 saylı ictimai məktəbin kimya müəllimi;

**Nuqzar Sadikovi** – Tbilisi 55 saylı ictimai məktəbin vətəndaş təhsili müəllimi;

**Mimoza Qolicaşvili** – Qori bələdiyyəsinin Xidistavi kənd məktəbinin və Elmlər Məktəbinin vətəndaş təhsili və vətəndaşlıq fənləri üzrə müəllimi;

**Roland Şavadze** – Xulo bələdiyyəsinin Mekeidzelər kənd ictimai məktəbinin ingilis dili müəllimi;

**Sopio Dziqraşvili** – Kutaisi 33 saylı ictimai məktəbin xüsusi müəllimi;

**İra Dzirkvadze** – Tsalka bələdiyyəsinin Qumbati kənd ictimai məktəbinin gürcü dili və ədəbiyyatı və ingilis dili müəllimi.

*Xatırladaq ki, Milli Müəllim Mükafatı Təhsil Koalisiyasının, Gürcüstanın Təhsil və Elm Nazirliyinin, Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəzin arasında bağlanmış memorandum əsasında 2017-ci ilin 13 mayında təsis edilib. Qeyd olunan təşəbbüs Gürcüstanda artıq 6-cı dəfədir həyata keçirilir. Mükafat müəllimlərin populyarlaşdırılmasına istiqamətlənmiş qlobal kampaniya – "The Global Teacher Prize"ın bir hissəsidir.*

*Müsabiqənin baş sponsoru Qudavadze-Patarkatsişvili Fondudur. Qızıl sponsoru isə "Liberty Bank"dır. Dəstəkçilər Gürcüstanın Təhsil və Elm Nazirliyi, Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəz, İlia Dövlət Universiteti, "EPAM Georgia", Konsultasiya və Treninq Mərkəzi (ctc), Birinci Kanal/Teleməktəb və "Maverik" Rəqəmsal-Kreativ Agentliyidir.*

## HANSI HALDA XƏBƏRDARLIQ EDİLMƏDƏN ABİTURİYENT İMTAHANDAN UZAQLAŞDIRILIR?



Bildiyimiz kimi, iyulun 4-dən etibarən vahid milli imtahanlar başlayır. Abituriyentlər nəzərə almalıdırlar ki, xəbərdarlıq edilmədən onları imtahandan uzaqlaşdıra bilərlər. Bu, Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzi tərəfindən abituriyent kitabçasında qeyd olunub. Kitabçaya əsasən, abituriyent aşağıdakı hallarda imtahandan uzaqlaşdırılacaq:

- ***Lüğət, köməkçi material, yəni "şparqalka", mobil telefon, elektron saat, kalkulyator və ya elektron aparat (elektron cihaz söndürülmüş olsa da) imtahana aparılarsa;***
- ***Qaydaların kobud pozulması və ya imtahan prosesində iştirak edən şəxsin təhqir edilməsi, yaxud başqa bu kimi hallar olarsa;***
- ***Spirtli, narkotik və ya psixotrop maddələrin təsiri altında olarsa.***

Qeyd olunanlardan başqa digər qayda pozuntusu zamanı abituriyentə xəbərdarlıq edilir. İkinci dəfə xəbərdarlıq alan halda müşahidəçi abituriyenti imtahandan çıxarmaq məcburiyyətindədir.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*

**Aynurə ƏLİYEVA**

# SƏHV DÜŞMƏSİN YERİMİZ



Sovet vaxtının ədəbiyyatını oxuyanda bir diplom bəhsinə rast gəlirsən, sanki ali təhsil "mod" dönəmini yaşayıb. Yadımdadır, təzətəzə seriallar televiziyaya yol açmışdı. Nənələrdən gəlinlərə, uşaqlardan gənclərə kimi hamı maraqla zamanı saatlara bölmüşdü.

Mənə maraqlı bir şey idi, orada heç kim bizi kimi televizora baxmırdı, nə də kütləvi ali məktəblərə qəbula hazırlaşmırdı. Doqquzuncu sinifdən on birə kimi kitabla yatıb, zənglə oyanan özümüzü düşünəndə, bu mənə çox maraqlı gəlirdi. Əcnəbilərin ali təhsil marağının olmaması məndə maraq yaratmışdısa bu, tələbə olmaq istəyimi azaltmamışdı. Günümü günümə calayıb nəhayət tələbə də oldum, məzun da. Sonra ailə həyatı, uşaqlar... O zamandan illər keçib. Başımı qatan qayğılar zamanı elə fırladı ki, bir də gördüm oğlum məzun olur. Bax, onda ayıldım sürətlə gedən ömrün düzgün olmayan seçiminin fəsadlarını təkrar düşünməyə. İndi təzədən yadıma düşdü ki, "Santa Barbara"ya elə bizim analar daha çox baxırmış, nəinki Amerika. Onlar həyat gerçəkliyini yaşayanda bizim analar "Fatmagüllərin suçunu hesablayırmış", bizim valideynlər hazırlıqlara pul tökük zorla uşaqları istədikləri "modnu" fakültələrə sürükləyəndə əcnəbilər maraq arxasıyca sərbəst gedib daha çox maddi və mənəvi qazanc qazanırlar.

Bax, indi gəlim mətləb üstünə. Sənət seçimi çox ciddi bir məsələdir. Burada birinci daxili həvəs, ikinci potensialın, üçüncü yaşadığın mühitin tələbatı olmalıdır. Bunlardan biri çatışmayanda balans itir. Həvəs olmasa savadın, şəraitin də olsa uğur qazanmazsan, əksinə, savad olmasa həvəs rol oynamır. Mühit, şərait olmasa nə savad, nə də maraq əhəmiyyətlidir. Bax beləcə, canlının su, hava, torpaq birliyi kimi.

Xeyli şagirdlərimiz bu il sənəd verib. İnşallah, uğurları xeyir olsun, amma seçimdə heç də hamısı düz seçim etməyib. Təbiətin möhtəşəm üçbucağını pozublar. Mən onların və valideynlərin istəyinə qarşı çıxmaq istəməzdim, amma təcrübənin pəncərəsindən gördüklərimi onlar içində olduqları otaqda görmürlər axı. İndi kimsənin istəyinə qarışmadan fikirlərimi yazacam. Bəlkə kiməsə köməkçi oldum.

Necə ki, pul həyatda heç nə həll etmir, amma hər şeyi həll edir, eləcə də diplom hər şeyi həll etmir, olmaması daha pis (auditoriya görmüşlər adlandırardıq biz gəncliyimizdə ətrafımızın seçmini). Yuxarıda dediyim üç öhdəlik: həvəs, savad, tələbatın olması sənin gələcəyini müəyənləşdirir. Həkim olmaq üçün ən əsas xoş ünsiyyət önəmli, bu yoxsa nə savad, nə də "Gülhanə" xəstəxanasında həkim işləmək köməyə gəlməyəcək. Müəllimə qayğıkeş psixoloq təfəkkürü lazımdır, mühəndisə məntiq, rəssama şeiriyyət baxışı və s.

Mən bilmirəm niyə hamı diplom dalıyca bir neçə istiqaməti seçir... Gözəl fantaziyası və zövqü olan bir məzuna kollecə sənəd verməyi məsləhət gördüm. Modelyer-dizayner kimi sənət al, ən azı savadlı dərzi olacaqsan, zövqlə tikdiyin paltarların ölçüsünü istəsən Hollivuddan da götürə biləcəksən, çünki sən savadlı dərzi olacaqsan, həvəskar yox. Həm bu sahəyə həvəsin var, həm də savadın olacaq. Maddi vəziyyətin yol versə genişləndir işini. Səni bu sahədə uğurlu görürəm dedim. Səhəri gün anası mənə atəşin məktub (sms) yazıb: "Əminəm öz qızınızı heç vaxt dərzi etməzsiniz, universitetlərdə oxudarsınız. Bəs mənim qızım niyə texnikum oxusun?" Əlbəttə, heç nə demədim, deməyə sözüm yox idi.

Bir başqa şagirdimin marağı texniki sahəyədir. Maraqlı kran konstruksiya etmişdi, bəzən əl işlərini çəkir yollayır mənə. Deyir "atam deyir ən asan və baş rahatlığı diş həkimidir, dişini çək, pulunu qoy cibinə, gərək həkim olasan"... Bu qədər maraq, istedad isə kəlbətinin altında məhv olmalıdır. Öyrənmiş ürəyə tövbə olarmı. Belə uşaqların səhv yoluna necə göz yumum? Anasını "blok" etmək şərtiylə məsləhətimi dedim.

Bizlərdə bu diplom xəstəliyi elə sümüyümüzə işləyib ki, heç pandemiya o qüdrətdə deyil, vallah... İnkişaf etmiş əcnəbi ölkələrdə ibtidai təhsil önəmlidir, vacibdir. Baza təhsili (9-cu sinfə kimi) bir sənət sahibi olmaq üçün əsasdır. Sonrakı təhsil isə lisey səviyyələrdir ki, paralel sənəd də verənlər var. Lisey məzunu (yəni bizim 12-ci sinif məzunu kimi) artıq savadlı kimi. Liseydən sonra nadir – hər 100 nəfərdən 10-15 nəfəri ali məktəbə gedə, ya getməyə, əksəri kollec təhsili alır. Hər kəs öz yolunu seçir.

Bizim bank işçilərimizin sayı bankları kökaltına salır, tibb bacıları, həkimlər xəstədən çoxdur. Daha perspektivli sənət – müəllimlik, kadr çatışmazlığı maksimum olsa da müəllim sənətini seçən azdır. Bu da bir faciə.

Mən gənclərə üz tutaraq deyirəm, qəlbinizin səsinə qulaq asın. Özünüzü harada görürsünüz ora can atın ki, müvəffəqiyyət qazanasınız. Diplom o demək deyil ki, siz qadirsiz, əsla, qadirlik qazancda olacaq. Qazanc isə maddi yox, mənəvi olanda sən o sən olursan. Peşə getdiyin yoldur, o yol sənin sağlığının paralelidir. Sevmədiyin iş əsəbdir. Əsəb olan yerdə sağlıq olmaz. Sağlığın itməsi ömür yolunun laxlamasıdır. Əsas İNSAN olmaqdır. O öhdəlikdə diplom yox, əməl var, əməli isə saflaşdıran təfəkkürdür.

Əziz məzunlar, çox istərdim atdığınız addımın gərəyini ətraflı düşünəsiniz. Sizlərdən çox narahatam. Ona görə yox ki, müəlliməm, ona görə ki, özümü əsl vətəndaş sayıram. Vətəndaş Vətəninin gələcəyini düşünməlidir! Sizin düzgün seçim yolunuz gələcəyi müəyyənləşdirəcək. Siz var olun ki, gələcək olsun. Sizlərin düzgün seçimi təməlli işini bilənlər deməkdir. Hamınıza uğur arzu edirəm! Kaş heç vaxt deməyəsiniz:

*Faciə oluruq biz*
*Səhv düşəndə yerimiz.*

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# TAXILI BİTƏN PAXILLAR



Paxıllıq. İnsana xas olan və çoxumuzun "qısqanclıq" olaraq dəyərləndirdiyimiz duyğu. Bəzi qohumların, qonşuların, dostların və başqalarının həmişə həyatda əldə etdiyimiz uğurları qısqandığını, yeni bizi paxılladığını düşünmüşük və daima paxıllığı mənfi bir xüsusiyyət kimi görmüşük. Əslində haqsız da deyilik. Amma məncə bir çox şeylərdə olduğu kimi paxıllığın da müsbət tərəfləri vardır. Müsbət olanı görmək üçünsə mənfi olana baxmaq lazımdır. Ona görə də yaxşı olar ki, "mənfi paxıllıqdan" başlayaq.

Deyək ki, yeni bir işə başlamışıq və uğurlar qazanırıq. Əgər bizim hər hansı bir tanışımız paxıldırsa bizim bu uğurumuza sevinmək yerinə onu əlimizdən almağa çalışacaq. Açıq desək, ayağımızın altını qazacaq. Qarşımıza müəyyən maneələr çıxardacaq, ən azından bizi həvəsdən salacaq bir işlər görəcək. Təbii ki, belə bir şəxsi həyatında heç kim istəməz. Bu, bizə edilən paxıllıqdır. Bəs biz də paxıllıq etsək, onda necə?

Tutaq ki, bu dəfə bir dostumuz bizim çalışdığımız iş sahəsində çalışmaq istəyir və bizdən kömək istəyir. Biz isə ya onun bizdən daha çox uğur qazanacağını düşünüb onu bu fikirdən daşındırır, ya da ona yardımçı olsaq belə onun uğur qazandığını görüb bu dəfə biz ona maneə törətməyə başlayırıq. Bizə paxıllananlar və yaxud bizim paxıllandıqlarımız, fərq etmir, əgər bunun nəticəsində kiminsə xəyalları, uğurları puç olursa, bu "mənfi paxıllıq"dır. Belə paxıllıqlar cəmiyyətimizin yaxından tanıdıqlarıdır və hər kəsin qohumu-qonşusu, dostu-tanışı arasında, təəssüf ki, bu cür insanlar var.

İndi isə yeni növ paxıllıqla tanış olaq, hansının ki, müsbət tərəfləri olduğunu düşünürəm.

"Ağ yalan" ifadəsi yəqin ki, hamımıza məlumdur. Yalan nə qədər pis bir xüsusiyyət olsa da "ağ yalanı" məsum hesab edirik və altında pis bir niyyət axtarmırıq. Onda "ağ paxıllıq" da olar. Sadəcə düşüncəni dəyişməklə buna nail ola bilərik.

Məsələn, bir yaxınımız öz işində uğurla irəliləyir və biz bunu qısqanırıq. Amma bu dəfə ona maneə törətmək əvəzinə özümüzü inkişaf etdiririk. Eynilə bir başqası bizi qısqanıb bizim kimi olmaq istəyə bilər, bunun üçün çox çalışar və hətta bizdən daha uğurlu da ola bilər. Bu isə bizim üçün sevindirici hal olmalıdır. Həm bizi örnək götürərək uğur qazanan insanla, həm də özümüzlə qürur duymalıyıq. Kimisə qısqanıb onun kimi olmaq istəyəndə və bu zaman onun uğurlarını, xəyallarını əlindən almadıqda bu, "ağ paxıllıq" olur. Beləcə də paxıllığın müsbət tərəfləri yaranır.

Bu gün paxıllıq cəmiyyətimizin ayağından asılmış daş rolunu oynayır. Düşüncə tərzimiz və niyyətimiz dəyişmədikcə dənizə düşməyi qaçınılmaz olacaqdır. Bəs düşüncəni necə dəyişək? Bu bir həqiqətdir ki, hər bir uşaq dünyaya gələndə insana xas olan xüsusiyyətlərə sahib olmur, onları böyüdükcə öyrənir. Paxıllıq da onu kimi.

Bəzi valideynlər var ki, "filankəsin uşağı hər şeyi mənim uşağımdan öyrənir, bizimki nə etsə o da onu təkrarlayır", "mənimki öyrətdi onu, indi bu qalıb bir kənarda, o olub tərif yiyəsi" və ya "gördülər bizim uşaq rəqsə gedir, onlar da öz uşaqlarını qeydiyyatdan keçirdilər" kimi fikrin sahibidirlər. Onlar qonşunun, qohumun uşağının onların uşağını, yaxud elə onların özünü qısqandığını düşünür və beləcə də övladlarına bunu aşılayırlar. Beləcə ayağımızdan asılan daş daha da ağırlaşır. Ədəbiyyat müəllimim nə vaxt bu mövzuda söhbət düşsə, istər məktəb, istər iş sahəsində, bir sözlə, həyatın hər sahəsində paxıllıq olduğunu deyir. Sonda da "Paxılın taxılı bitməz" atalar sözünü əlavə edir. Doğru da deyir. Amma unutmayaq ki, "ağ paxıllar" da var. Onların sayı artsa həm biz, həm cəmiyyətimiz inkişaf edər, həm də taxılımız bitər.

**Çiyalə Osmanova**
*Qardabani 3 saylı ictimai məktəbin 11-ci sinif şagirdi*

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ
## NƏ VAXTSA AĞI QARADAN SEÇMƏYİN VAXTI GƏLƏCƏK
## (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

Növbəti "Qanlı Qoca oğlu Qanturalı boyu" yenə eposun geniş yayılmış mövzusuna – oğlan və qızın evlənməsinə aiddir.

Qanlı Qoca qərara gəldi ki, nə qədər canı sağdır oğlunu evləndirsin. Oğul atanın sözünə baxdı. Lakin oğlu elə bir qız istədi ki, o yerindən durmadan o durmuş olsun, o qaraquc atına minmədən o minmiş olsun, o qanlı kafir elinə getməmiş, o gedib ona baş gətirmiş olsun. Burada oğlanın bu tələbi onunla diqqətə layiqdir ki, o sözbəsöz Baybörə bəyin oğlu Bamsı Beyrəyin əhvalatında bəyan edilib və bunun barəsində atanın da cavabı bir az dəyişikliklərlə verilib: "Oğul, sən qız istəməzmişsən, bir cilasun-bahadır istərmişsən, anun arqasında yeyəsən, içəsən, xoş keçəsən". Bu ondan xəbər verir ki, bizim işimiz bədii qanunla və odövrkü ictimaiyyətin etik baxışı ilə bəyənilmiş işlənib hazırlanmış tipik model ilədir. Elə burada vurğulayacağam ki, bu cür möhkəm növ obrazların və dəyişməz mənzərələrin təkrarı, dəfələrlə qeyd etdiyim kimi, Dədə Qorqudun bədii quruluş və strukturunun əsaslarının əsasıdır.

Qısası, əvvəlcə oğlu qız axtarmağa getdi. İç Oğuzu gəzdi və layiq olanı tapa bilmədi. Sonra ata axtarır gəlini, İç Oğuzu, Daş Oğuzu dolaşdı və nəhayət Trabzona tərəf üz tutdu. Tarixçilərin verdiyi məlumata görə, bu yerlər, qeyd etmək lazımdır ki, kralın gözəl qızları ilə məşhur idi. Onların gözəlliyi barədə əfsanələr də dolaşırdı. Bununla əlaqədar V.Bartold qeyd edir ki, çərkəz, gürcü, erməni və türkmən cəngavərlər və şahzadələr dağlarda tikilən qalalar şəhərinə məmnuniyyətlə tez-tez gedirdilər və böyük Komnen krallığına qonaq olurdular. Müsibətlərdən sovuşmaq üçün Trabzon feodallarının gözəl qızları ilə evlənirdilər. Məhz elə bu epizod da bu gerçəkliyin gərək ki, əks-sədasıdır.

Trabzon təkurunun bir gözəl-göyçək, yaraşıqlı qızı varmış. Gözəlliyindən başqa bir növ püxtələşmiş oxatan və atçapan döyüşçü idi. Lakin atası kim quduz aslanla, qara buğa və qara dəvə ilə vuruşsa, məğlub etsə, öldürsə qızını ona verəcəyini vəd etmişdir. Məğlub edə bilməyənin başını vururdu.

Bütün bunları ata oğluna danışır. Oğlu da bu üç vəhşi heyvanla savaşmaqla öz istəyinə nail olmaq qərarına gəlir. Ata oğlunun başına nəsə gəlməsindən qorxur və "yaramazlıqlar krallığına" getməməyi məsləhət görür. Məsləhət görür ki, geri qayıtsın, ağsaqqal atasını, ağbirçək anasını kədərləndirməsin. Lakin oğlan atasının məsləhətinə təəccüb edir və odur ki, cavab verir: "Baba, bu sözi sən mana diməmək gərək idin. Çünki dedin, əlbəttə varsam gərək. Başıma qaxınc, yüzümə toxınc olmasın. Qadın ana, bəğ baba, əsən qalun!" O, özünün qırx igidini yanına alıb yola düzəldi. Kafirlər yeddi ağac məsafədə irəli gəldilər və ondan soruşdular: "İgid, de görək niyə gəlmisiz?". "Verişməğə-alışmağa gəldik", - dedilər. Hörmət-izzət elədilər. Ağ çadır qurdular, iri xalı döşədilər, ağ qoyunlar kəsdilər, yeddiillik al şərab içirdilər"...

Qız meydanda tikilən bir köşkdən arenaya baxırdı. Qanturalı gözəl və dolğun igid idi. Oğuzlar arasında dörd igid niqab gəzdirirdi, onlardan biri Qanturalı idi. O niqabı üzündən götürəndə qızın "daraqlığı boşaldı, kedisi mavladı, avsal olmuş dana kibi ağzının suyu axdı"...

Savaş məqamı yetişdi. Onun dostları ağlayırdılar. Qanturalı deyir ki, ağlamaqdan qopuzu gətirməyiniz yaxşıdır, tərifləyin, gümrahlandırın məni. Doğrudan da hər üç savaşdan öncə dostlar mahnılarla öz qəhrəmanını gümrahlandırırdılar. Bu tamamilə yeni baxışla qəhrəmanla onun dostlarının əlaqələrini bürüzə verir. Burada savaşdan öncə mahnı ilə onun savaş qabiliyyətini artıran ürəkləndirmə onu göstərir ki, bədii söz, mahnı, istərsə də musiqi döyüşçünün əhval-ruhiyyəsini yüksəltmək üçün mühüm rol oynayırdı. Bu əhval-ruhiyyə isə bir tərəfdən qəhrəmanın özünə, ikinci tərəfdən isə, mənəvi ucalığa, yüksəlişinə səbəb olması üçün oxucuya, istərsə də dinləyiciyə qarşı yönəldilmişdir *(Bax: Fallmeyer J.Ph., "Gesshichte des Kaisertums von Ttapezunt", München, s.100).*

Qısası, dostların bu mahnısı ilə döyüşən Qanturalı üç heyvanı məğlubiyyətə uğradır və onların dərisini qızın atasının qabağına gətirir. Ata da kişi kimi sözünün üstündə duraraq qızı Selcan xatunu böyük təmtəraqla Qanturalının gərdəyinə apararaq yanına salır. Lakin Oğuz igidi dedi: "Yer kimi çatlayım, torpaq kimi sovrulum, qılıncımla doğranım, oxuma sancılım, oğlum doğulmasın, doğularsa on günlük olmasın, əgər bəy atamın və xanım anamın üzünü görməmiş bu otağa girib yatsam". Göründüyü kimi, oğuzların ənənəsi belə idi: əvvəlcə ataana oğlanlarının xeyir-duasını verməli idi, yalnız bundan sonra onun gərdəyə girmək ixtiyarı var idi. Bu cür qayda bir daha ondan xəbər verir ki, oğuzlarda valideynlərə qarşı böyük hörmət-izzət hökm sürürdü. Ümumiyyətlə, gərdəyə girmək etik baxışdan olduqca böyük dəyər idi. Beyrəyin hərəkətini xarıtlayaq. O, öz dostlarını əsirlikdən xilas etməyincə gərdəyə girmir. Və yaxud da Beyrəyə nişanlısı "gəl murada yetişək, irəli baxmaq lazım deyil" deyəndə Beyrək rədd cavabı verir, "kim bilir bizi hansı tale gözləyir" deyir. Bu isə taleyin nəzərə alınmasından və onların əlaqələrinin çətin durumda sınağından başqa artıq bir bir şey demək deyildir.

Elə burada Qanturalının əhdi-andı diqqət çəkir ki, bu da oğuzlarda geniş yayılan və qaydaya düşmüş formanı daşımasıyla özünü göstərir.

Qısası, Qanturalı Selcan xatunun müşayiəti ilə valideynlərini sevindirmək üçün hərəkətə keçir. Yolda gözəl bir çəmənlikdə, gül-çiçəkli bir yerdə dincəlmək üçün dayandılar. Yedilər, içdilər. Qanturalının yuxusu gəldi. Dədə Qorqud qeyd edir ki, "o zamanlar Oğuz igidlərinə nə bəla gəlirdisə, yuxudan, yatmaqdan gəlirdi". Qeyd etmək lazımdır ki, bir bədbəxtlik səbəbi olaraq ta qədimdən üzü bu yana müxtəlif xalqların şüurunda müxtəlif interpretasiya ilə dərk edilib və bərqərar olunub. Selcan xatunu şübhə bürüdü: "Mənim aşiqlərim çoxdur. Birdən xəlvətcə gəlib, igidimi tutub öldürərlər. Ağ üzlü mən gəlini tutub yenə ata-anamın evinə apararlar!" Buna görə də Qanturalının atını gizlicə yəhərlədi. Özü də altdan yaraqlanıb üstdən geyindi. Süngüsünü əlinə aldı, bir yüksək yerə çıxıb gözlədi.

Doğrudan da onun atası deyəsən peşman olmuşdu. "Elə üç heyvan öldürdüyü üçün təkcə, bircə qızcığazımı aldı getdi", - deyə fikirləşdi. Gizlincə qara donlu, göy dəmir qılınclı, altı yüz kafir seçdi. Qız anladı ki, onlar hücum etməlidirlər. Baxdı, lap irəli gəlmişdilər. Atını oynadıb, Qanturalının üstünə gəldi. Ona dedi: "Qafil olma, qara başını qaldır, igid! Ala-qıyma, gözəl gözünü aç, dur, igid! Qolların və ağ əllərin bağlanmadan…" O da oyandı. Hər ikisi mübarizəyə qoşuldular. Xatun düşmənə hücuma keçdi. Onlar da qaçdılar. Düşündü ki, düşmən məğlub olub. Çadıra qayıtdı. Lakin Qanturalını heç yerdə görə bilmədi... Bu zaman Qanturalının valideynləri də gəldi. Oğullarını görməyəndə ağlamağa başladılar. Selcan xatun yüksək bir yerə gəldi. Gördü ki, Qanturalının atını oxlamışlar, özü də ki, yaralanmışdır. Kafirlər qılınc siyirib üstünə toplaşır, o isə onları qabağına qatıb qovur. Bir bölük qaza şahin girən kimi kafirlərin üstünə at saldı. Qanturalı baxdı gördü ki, kim isə düşməni qabağına qatıb qovur. Selcan olduğunu bilmədi, qəzəbləndi. Burada onlar arasında deyişmə baş verir. Oğlan ondan soruşur, kimsən sən, mənim düşmənimin üstünə məndən heç nə soruşmadam hücum etdin.

"Qalxıb yerindən duran igid, nə igidsən? Qarayallı Qazlıq ata minən igid, nə igidsən? Qəfildən başlar kəsən, izinsiz döyüşə girən igid, nə igidsən. İzinsiz döyüşə girmək bizim eldə eyibdir. Çıx, get! Qızılquş olaraq uçummu?" Qanturalı anladı ki, bu düşməni basıb-dağıdan Selcan xanımdır. Hər ikisi birlikdə düşmənə qarşı hücuma keçdi və düşmən məğlun oldu. Selcan xanım Qanturalını ata mindirib, yedəyinə aldı, geri qayıtdı. Yolda gedərkən Qanturalı öz-özünə fikirləşdi: Selcan xanım, yerindən qalxıb-durub, Qarayallı Qazlıq atıma minib, atamın ev-eşiyinə gələndə, Oğuzun ala gözlü qız-gəlini biləndə, ətrafına yığışaraq güləndə, hər kəs öz sözünü söyləyəndə, sən də durub öyünəsən, "Qanturalı yaralıydı, at belinə aldım, çıxdım" deyəsən! Gözüm doydu, könlüm döndü, öldürürəm səni! - dedi.

Selcan xanım işin nə yerdə olduğunu bilib, söyləmiş, görək, xanım, nə söyləmişdir:

***"Bəy igid, ögünərsə, ər ögünsün, aslandır!***
***Ögünməklik övrətlərə böhtandır.***
***Ögünməklə övrət ər olmaz .***
***Ala yorğan içində səninlə dolaşmadım.***
***Datlu damaq tutubanı soruşmadım.***
***Al duvağım altından söyləşmədim.***
***Tez sevdin, tez usandın, qavat oğlu, qavat!***
***Qadir Allah bilür ki, mən sana munisəm, yaram, qıyma mana!*** *(D.D.K., səh. 123; D.D.K., səh. 95; O.D.D.K.K., səh. 145).*

Oğlan öz sözündən dönməyir. Qız da hirslənir və deyir: "Ay əbləh oğlu, əbləh! Mən aşağı qulpa yapışıram, sən yuxarı qulpa yapışırsan. Ay əbləh oğlu, oxla ya qılıncla vuruşursan? Bəri gəl, danışaq!". Atını sürüb bir yüksək yerə çıxdı. Oxqabından doxsan oxunu yerə tökdü. İki ox seçib, dəmir ucluqlarını çıxardı. Birini gizlətdi, birini əlinə götürdü. Dəmir ucluqlu oxla atmağa ürəyi gəlmədi. Dedi: "İgid, oxunu at!" Qanturalı dedi: "Qızların yolu birincidir, əvvəlcə sən at!". Qız bir oxu elə atdı ki, Qanturalının başındakı bit ayağına yıxıldı. Qanturalı ox atmadı, irəli gəlib Selcan xanımı qucaqlayıb barışdı, öpüşdülər. Qanturalı onu mədh etməyə başladı:

***"Yalab-yalab yalabıyan incə donlum!***
***Yer basmayıb yürüyən***
***Qar üzərinə qan dammış***
***kibi qızıl yanaqlım!***
***Qoşa badam dar ağızlum!***
***Qələmçilər çaldığı qara qaşlım!***
***Qurması qırq tutam qara saçlım!***
***Aslan uruği, sultan qızı,***
***öldürməyə mən səni qıyarmıdım?!***
***Öz canıma qıyam, mən sana qıyamayam;***
***Mən səni sınardım", -dedi.***

Bu o portretdir ki, bununla da az-çox fərq ilə Oğuz xalq aşiqanə poeziyasında və ələlxüsus Dədə Qorqud boylarında bizə təqdim olunur. Sonra Selcan xatun da bir neçə sözlə mahir oxatan və ovçu olaraq öz-özünün portretini çəkir...

Nəhayət, hər ikisi – oğlan da, qız da bəyan edirlər ki, onlar yalnız sınaq üçün döyüşdülər və bir-birlərini öldürməyi özlərinə rəva görə bilməzdilər.

Bu boy da xeyirxahlıqla bitir. Böyük toy edilir. Yenə Dədə Qorqud gəlir, bu dünyanın faniliyini, ölümün labüdlüyünü xatırladır, onlara xeyir-dua verir, şərəfləndirir və boy boylayır, soy soylayır.

*(davamı gələn sayda)*

**Gürcü dilindən tərcümə edən:**
**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR
## MƏİŞƏT
## 16. EVLƏRİ VAR XANA-XANA



*(əvvəli ötən sayda)*

Niderlandı daha yaxşı tanımaq üçün onların evlərinə yaxından baxmamız gərəkdir. Mən burada rast gəldiyim köhnə və yeni evlər barədə ayrı-ayrı bölümlərdə bu və ya digər məsələlərdən danışarkən, ötəri də olsa bəhs etdiyimi də unutmamışam. Bu üzdən də, məni təkrarçılıqda suçlamayacağınıza ümid edirəm.

Niderlandın tipik evlərindən, bizim həyət evlərinə, kənd evlərinə az da olsa bənzəyən evlərindən danışmaq istəyirəm. Yeri gəlmişkən, holland evləri daha çox Rusiyanın Arxangelsk, eləcə də Yaroslavl vilayətində gördüyüm və müəyyən müddət içərisində yaşadığım ağac tirlərdən inşa edilmiş evlərə daha çox bənzəyir. Rus evləri kiçik görünmələrinə rəğmən, yaşayış üçün, həm də sərt keçən qışa münasibliyi ilə maraq doğurur.

Hollandların evləri adətən bir, iki, üç mərtəbəli tikilir. Evlərin damından yaşayış sahəsi kimi istifadə edilir. Tikinti materialı kimi kərpic və kirəmit bu evlərin əsas inşaat materialıdır. Kirəmitlər rəngarəngliyi ilə fərqlənir. Niderlandda evlər yığcamlığı ilə diqqəti cəlb edir. Belə kiçik evlərdə bir neçə ailənin yaşadığını da müşahidə etmək olar. Əslində bu evlər taunhaus adlandırılan evlərdir. Taunhausların XIX yüzillikdə İngiltərədə meydana gəldiyi söylənilir. Bu tip evlərdə bir neçə ailə yaşasa da, hər bir ailənin girişi ayrıdır. Adətən belə evlərin girişi bir başa səkiyə açılır. Eyni dam altında yaşamalarına, divar qonşusu olmalarına rəğmən hər kəsin "heçi ayrı, köçü ayrı"dır. Evlərin diqqətçəkən digər bir özəlliyi isə böyük pəncərələrə malik olmasındadır. Bu cür evlərin qarşısında hər ailəyə məxsus kiçik bağçanın olması da diqqətdən yayınmır.

Niderlandda fərdi evlər də çoxdur. Bu cür evlərdə yalnız bir ailə yaşayır. Fərdi evlər də ailənin zövqünə, büdcəsinə uyğun olaraq bir, iki, üçmərtəbəli ola bilir. Evin qarşısında kiçik bağça, arxa tərəfində isə qaraj və təsərrüfat tikililəri də görə bilərsiniz.

Dupleks evlərə də təsadüf olunur. Bu tip evlər iki ailənin eyni dam altında yaşamasına imkan verir. Dupleks evlərdə yaşayan hər bir ailənin evə giriş-çıxışı ayrıdır. Bu evlərin də hər birinin qarşısında hər bir ailəyə məxsus 30-40 kvadratmetrlik kiçik bağça, arxada isə qaraj və ya kiçik yardımçı tikililər olur. Dupleks tipli evlər bizim iki qardaşın ata evini öz aralarında bölməsinə bənzəyir. Bu bənzərliyi ortaya çıxarmamdan xeyli məmnun qaldığımı dilə gətirməyin qaçılmaz olduğunu da qeyd etməliyəm. Ancaq bizim qardaşların ata mülkünü bəzən onillər boyu bölüb başa çatdıra bilmədiklərini, hətta düşmənə çevrildiklərini, az qala "it-pişik kimi" yola getdiklərini xatırlayanda isə başımdan tüstü qalxdığını da ərz etmədən dura bilmirəm. "Yox, nə danışırsan, bizimkilər elə şey yaparlarmı?" - deyənlərimizə isə sağa-sola yaxşı-yaxşı təfərünc etməyi məsləhət bilirəm.

Hollandların üzən evləri barədə isə yuxarıda danışdığımızdan onları burada təkrar etməmizə gərək qalmır.

Bizdən fərqli olaraq, ətrafına hasar çəkilmiş evlərə rast gəlməzsən. Adama elə gəlir ki, hollandlar kimsədən gizləyəcək bir şeyləri olmadığından evlərini hasarlamırlar. Amma əslində belə olmadığını ovcumun içi kimi bilirəm. Bizdən fərqli olaraq, holland evinin toxunulmaz olduğunu bilir, kiminsə evinə kənar müdaxilə yolverilməzdir. Vətəndaşın mülkiyyəti toxunulmazdır. Bu mülkiyyətin dövlət tərəfindən qorunduğuna hər bir vətəndaş əmindir. Vətəndaş azadlığını tam şəkildə ifadə etmək üçün evinin bir məkan olduğunu da anlayır və ondan sonadək yararlanmaq istəyir. Evin dörd tərəfinin uca hasara alınmasının bir ətək xərc istədiyini, bu hasarın onun hava almasını çətinləşdirəcəyini anlayan holland bu yöntəmdən biryolluq canını qurtarmış kimi görünür. Bağçaların ətrafına taxtadan, metaldan, kərpicdən çəkilmiş alçaq hasarçəpərlər isə dekorasiya mahiyyəti daşıyır, yaraşıq üçündür. Bəzi yerlərdə isə taxta və ya kərpicə də gərək qalmır. Hasarları müxtəlif dekorativ bitkilər əvəz edir. Əslində Avropada bu hasarlar evin, bağçanın kənardan daha gözəl görünməsinə, təbiətin arxitektura ilə harmoniya təşkil etməsinə hesablanmış elementlərdir.

Niderlandın ərazisi çox böyük olmadığından, yəqin ki, torpağa qənaət məqsədilə bir-birinə qonşu olan evlər arasında məsafə az olur. Bəzən bu evlərin bir neçəsi həm torpağa, həm də inşaat materiallarına qənaət etmək üçün bitişik tikilir. Bəzən belə evlərin daxili həyətləri də olur ki, sakinlər ondan ya ümumi, ya da fərdi qaydada istifadə edirlər. Belə evlərin daxili həyətinə keçmək üçün kiçik bir giriş qoyulur. Gözün evlərin arasındakı boşluğu yaşıllıqların süslədiyini, böyük ağacların doldurduğunu dərhal alır.

Evlərin ümumi bənzərliyinə baxmayaraq, hər bir evin özünəməxsus fərqə malik olduğu dərhal sezilir. Bu fərq eyvanlarda, qapı və pəncərələrdə daha aydın seçilir. Evlərin damlarını işıqlandıran pəncərələrin gözəgəlimli olmasına da diqqət yetirilir. Evlərin divarları, pəncərələri, qapısı kənardan təmizliyi ilə göz oxşayır. Bu evlərə bayırdan baxdıqda rəngi bozarmış, qopmuş heç nəyə rast gələ bilməzsən. Evin rənglənməsi gərəkən hər yeri vaxtlı-vaxtında mütləq yenilənir. Pəncərəsini, qapısını və ya divarlarının müəyyən hissəsini boyayan insanlara günün istənilən vaxtında rast gələ bilərsən. Boya işini yapan ev sahibinə "qonşu, gərək ağ yox, qırmızı rəng vuraydın" kimi bir söz deyən də yox. Ev sahibi özünün və ailəsinin zövqünə güvənərək rəng seçməkdə özgürdür. Onun işinə kimsənin qarışması mümkünsüzdür. Niderland gerçəkliyi bu qədər bəsit və sadədir. Burada sanki qonşular evlərinin baxımında hər gün bir-birilə yarışdadırlar. Sanki "Kimin evi daha gözəldir" adlı müsabiqə elan olunub. Qonşu qonşuya baxar demirlərmi? Hamı evinin, bağçasının görünüşcə gözəl və fərqli olması üçün hər gün əlindən gələni edir. Heç kim tərəfindən rəsmi elan edilməyən bu yarışma bütün ölkə miqyasında şəhərin, kəndin ümumi görünüşünün ideal səviyyədə olmasını tənzimləyir. Təmizlik idarəsindən müəyyən rüsum qarşılığında sifariş edilmiş xüsusi konteynerə evlərin təmiri zamanı çıxan lazımsız şeylərin səliqə ilə yığıldığını, vaxtı gəlincə həmin idarənin bu məqsədə xidmət edən maşınının konteyneri götürdüyünü hər gün müşahidə etmək mümkündür. Təmir bitir, ətrafda heç bir daşa-kəsəyə, təmirdən sonra adət etdiyimiz əlamətlərə rast gəlmək mümkün deyil. Evlərin ətrafa kiçik bir çöp belə düşmədən təmiri bu şəkildə aparılır.

Üst qatlara qalxmaq üçün evin içərisində yerə qənaət etmək üçün ensiz pilləkanlar quraşdırılır. Bu pilləkanlar dik quruluşu ilə fərqlənir və yuxarı qalxmaq üçün o qədər də münasib deyil. Evin hər mərtəbəsində iki-üç kiçik otaq yerləşir.

Ev gördüm evimə imrəndim, ev gördüm evimdən iyrəndim demirlərmi? Holland evləri rahatlığı ilə istənilən insanı özünə bağlamağa qadirdir. Dəbdəbə sevənlərin, təmtəraq aşiqlərinin holland evlərinin bu rahatlığını, insana dinclik gətirən bu yığcamlığını özlərinə nümunə götürəcəyinə isə ümid bəsləməkdən savayı əlimizdən heç nə gəlmir.

Bu evlərin içərisində insanların necə yaşadıqlarını, necə əyləndiklərini, vaxtlarını necə keçirdiklərini, nə yeyib-içdiklərini, biş-düşlərini necə hazırladıqlarını maraq edə bilərik. Bu maraqlarımızın bəzilərini yuxarkı bölümlərdə az-çox təmin etdiyimizi düşünərək, mən holland evlərini yaxşı tanımaq üçün onların mətbəxlərinə baş çəkməyi daha uyğun yol saydığımdan söhbətimizi mətbəxdə davam etdirmək istəyirəm.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
Niderland

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

Yeni YOL

30 İYUN
2022-Cİ İL
№ 012 (159)

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com ❁ "ახალი ბილიკი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# TBİLİSİDƏ BÜLBÜLÜN XATİRƏSİ YAD EDİLİB



İyunun 22-si Azərbaycan professional vokal sənətinin banisi, görkəmli opera müğənnisi, SSRİ Xalq artisti Bülbülün anadan olmasından 125 il ötür.

Azərbaycanın Gürcüstandakı səfirliyinin təşəbbüsü ilə Bülbülün Tbilisidəki büstü ziyarət olunub.

Diplomatik nümayəndəliyin əməkdaşları Tbilisidə Azərbaycan Mədəniyyəti Muzeyinin direktor müavini Leyla Əliyeva ilə birgə Bülbülün xatirəsini ehtiramla anaraq abidəsi önünə gül dəstələri düzüblər.

Qeyd edək ki, 2015-ci ilin fevralında M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinin qarşısında açılan büstün müəllifi görkəmli gürcü heykəltaraşı Giorgi Caparidzedir. Azərbaycanın Mədəniyyət Nazirliyi bu yaxınlarda onu "Nizami Gəncəvi - 880" xatirə medalı ilə təltif edib.

Xatırladaq ki, Azərbaycan mədəniyyətinin inkişafına mühüm töhfələr verən Bülbül (Murtuza Məşədi Rza oğlu Məmmədov) 1897-ci il iyunun 22-də musiqi və mədəniyyət beşiyimiz Şuşa şəhərində anadan olub. Xalq mahnıları və romansların ("Sənsiz", "Sevgili canan" - Ü.Hacıbəyli, "Ölkəm" - A.Zeynallı və s.), operalarda ("Koroğlu", "Əsli və Kərəm") baş partiyaların unudulmaz ifaçısı kimi şöhrət qazanıb. 1931-ci ildə Milan Konservatoriyasını bitirən sənətkar Azərbaycan Dövlət Konservatoriyasının professoru olub. O, həmçinin xalq musiqisini öyrənən elmi tədqiqat kabinetini yaradıb. 1961-ci ilin 26 sentyabr tarixində vəfat edib.

# 2022-Cİ İLİN QARDABANİDƏN OLAN "ETALON ŞAGİRDİ" MÜƏYYƏN OLUNUB



İyunun 24-dü Gürcüstanın Milli İntellekt Çempionatı "Etalon" çərçivəsində keçirilən "Etalon şagird" intellekt yarışmasının Qardabani üzrə qalibi və yüksək bal toplayanlar müəyyən olunub. "Etalon şagird" titulunu Qardabani rayonunun Teleti ictimai məktəbinin IX sinif şagirdi **Nini Kikolaşvili 85 bal** toplayaraq qazanıb.

Xatırladaq ki, müsabiqənin birinci və ikinci mərhələləri xüsusi test portalı vasitəsilə keçirilib. Gürcüstanın Milli İntellekt Çempionatı "Etalon" distant formatda Gürcüstanın Təhsil və Elm Nazirliyinin dəstəyi ilə həyata keçirilir. Yarışmanın məqsədi şagirdlər arasında qeyri-formal təhsilə dəstək olmaq, motivasiya-həvəsləndirmə və bu məqsədlə müasir texnologiyalardan istifadə etmək bacarığının inkişaf etdirilməsidir.

Müsabiqənin iştirakçısı olan bütün qardabanili şagirdlər "Etalon"un xüsusi onlayn diplomu, ikinci mərhələdə isə onlayn qızıl diplomu ilə mükafatlandırılıblar. İntellektual müsabiqə Qardabani meriyası və meriyanın Təhsil, Mədəniyyət, Gənclər, İdman, İctimaiyyət və Media ilə Əlaqələr Xidmətinin dəstəyi ilə keçirilib.

***Müsabiqədə yüksək bal toplayan digər qardabanili şagirdlər isə bunlardır:***

1. **Mustafa Gözəlov – 78 bal** (Qaratəhlə ictimai məktəbinin X sinif şagirdi);
2. **Nikoloz Burduli – 77 bal** (Sarticala 2 nömrəli ictimai məktəbin IX sinif şagirdi);
3. **Tinatin Mcedlişvili – 76 bal** (Qamarcveba ictimai məktəbin XI sinif şagirdi);
4. **Eliso Tsiklauri – 76 bal** (Axali Samqori ictimai məktəbin XI sinif şagirdi);
5. **Tatia Paksaşvili – 75 bal** (Sarticala 2 nömrəli ictimai məktəbin XI sinif şagirdi);
6. **Röya Qasımova – 67 bal** (Kosalı ictimai məktəbinin XI sinif şagirdi);
7. **Lizi Coxadze – 66 bal** (Dzaqebi ictimai məktəbinin IX sinif şagirdi);
8. **Mariam Dzamaşvili – 64 bal** (Martkopi ictimai məktəbin X sinif şagirdi).

# TBİLİSİDƏ FƏTƏLİ XAN XOYSKİNİN MƏZARI ZİYARƏT EDİLİB



Tbilisidə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradıcılarından biri, Azərbaycanın ilk baş naziri kimi tarixə düşən Fətəli Xan Xoyskinin xatirəsi anılıb.

Görkəmli dövlət və siyasi xadimin Nəbatat bağındakı görkəmli azərbaycanlıların panteonundakı məzarı qətlinin 102-ci ildönümü günündə ziyarət olunub.

Ziyarətdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və səfirlik əməkdaşları iştirak ediblər. F.Xoyski ilə yanaşı, AXC parlamentinin sədr müavini olmuş Həsən bəy Ağayev, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundzadə və onun ailə üzvlərinin də məzarları önünə gül dəstələri düzülüb.

Xatırladaq ki, F.Xoyski 1918-1920-ci illərdə AXC-nin ədliyyə, daxili işlər naziri, Nazirlər Şurasının sədri və xarici işlər naziri olub. O, AXC-nin süqutu və sovet hakimiyyətinin qurulmasından sonra Tbilisiyə mühacirət edib. 1920-ci ilin iyunun 19-da Tbilisinin Qolovin prospektində (indiki Şota Rustaveli prospekti) "Daşnaksütyun" partiyasının üzvləri Aram Erkanyan və Misak Qriqoryan tərəfindən arxadan güllə ilə vurularaq qətlə yetirilib.

H.Ağayev isə bir ay sonra - həmin ilin iyulun 19-da Tbilisidə muzdlu erməni terrorçu tərəfindən qətlə yetirilib.

# GÜRCÜSTAN "STARLİNK" PEYK İNTERNETİ İLƏ TƏMİN EDİLƏ BİLƏR




"SpaceX" şirkəti Gürcüstanı "Starlink" peyk interneti ilə təmin etməyi planlaşdırır. Bu məsələ şirkət nümayəndələri və Gürcüstanın Kommunikasiyaların Tənzimlənməsi üzrə Milli Komissiyanın üzvü Ekaterina İmedadze arasında keçirilən görüşdə müzakirə olunub.

Tərəflər Gürcüstanda telekommunikasiya sahəsinin hazırkı vəziyyəti və gələcəyi, həmçinin rəqəmsal iqtisadiyyatın inkişaf perspektivləri ətrafında da fikir mübadiləsi aparıblar.

İnternetə çıxış üçün qlobal peyk sistemi olan "Starlink" ilk dəfə olaraq Ukraynada müharibə başlayandan aktivləşdirilib. Bu ölkədə "Starlink"in gündəlik aktiv istifadəçilərinin sayı təxminən 150 min nəfər təşkil edir.

# "VTB BANK" GÜRCÜSTANI TƏRK EDİR




Rusiyanın sanksiyalara məruz qalan "VTB Bank"ı Gürcüstan bazarını tərk edir. Bu barədə bankın rəhbəri Andrey Kostin "İnterfaks" agentliyinə müsahibəsində bildirib.

Onun sözlərinə görə, bank yalnız Gürcüstanı tərk etmək barədə qərar verib.

*"VTB Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Çin və Hindistanda qalmaqda davam edir. Bizim mövqeyimiz prinsipialdır, biz hər yerdə qalırıq. Bu ölkələrdə biznesimizin inkişafı üçün perspektivlər görürük. Biz yalnız Gürcüstandan gedirik, bu ölkədə vəziyyət bir qədər başqadır"*, - deyə A.Kostin bildirib.

Qərb ölkələrinin Rusiyaya Ukraynadakı müharibəyə görə tətbiq etdiyi maliyyə sanksiyalarından sonra 1995-ci ildə təsis olunmuş "VTB Bank"ın Gürcüstan bölməsi fiziki şəxslər, borc alanlar və depozitarilərə xidmət göstərmək hüququndan məhrum edilib. Bankın pərakəndə kredit və depozit portfeli "BasisBank"a, hüquqi şəxslərə xidmət portfeli isə "Liberty Bank"a verilib.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.